**Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur). *

2. "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin strukturu" təsdiq edilsin (əlavə olunur). *

3. "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi" təsdiq edilsin (əlavə olunur). *

4. "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı" təsdiq edilsin (əlavə olunur). *

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 yanvar 2016-cı il
725

---

* Əlavələr dərc edilmir.

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 20 fevral 2017-ci il tarixli **1253** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2017-ci il, 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 2, maddə 197**)
2. 11 yanvar 2018-ci il tarixli **1779** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 yanvar 2018-ci il, 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 35**)
3. 30 may 2018-ci il tarixli **96** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 964**)
4. 26 yanvar 2018-ci il tarixli **1796** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 52**)
5. 29 iyun 2020-ci il tarixli **1075** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 iyun 2020-ci il, 123, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 716**)
6. 9 dekabr 2020-ci il tarixli **1209** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 dekabr 2020-ci il, 261**)